# Yeni dərs iliniz mübarək!

## Müəllimlərimin etimadını doğruldacağam

Mən Qəbələ şəhər 1 saylı tam orta məktəbin bu ilki məzunuyam. 2014-cü ildə respublika Gənclər və İdman Nazirliyinin layihəsi olan "İstedadların hazılığı laboratoriyası"nda fizika, kimya və riyaziyyat fənlərindən 3 mərhələli bilik yarışmasında respublika üzrə I yeri tutmuş, qızıl medala layiq görülmüşəm. 2015-ci ildə isə Təhsil Nazirliyi tərəfindən keçirilmiş Respublika Fənn Olimpiadasında kimya fənni üzrə respublika II-si olaraq gümüş medal qazanmışam. Orta məktəbi qızıl medalla bitirmişəm.- Qəbul imtahanlarında IV qrup üzrə 695-bal toplayaraq ATU-nun müalicə işi fakultəsinə daxil olmuşam. Prezident təqaüdçüsüyəm.

Əlbəttə ki, qazandığımız uğurlar tək bizim uğurumuz deyildir. Mən bu nailiyyətlərimə görə ölkəmizdə təhsil sahəsinə ayrılmış xüsusi diqqət və qayğıya görə hörmətli Prezidentimiz cənab İlham Əliyevə, təhsil nazirimiz cənab Mikayıl Cabbarova, Qəbələ Rayon İcra Hakimiyyətinə, xüsusən öz müəllimlərimə dərin minnətdarlığımı bildirirəm.Qeyd olunduğu kimi dövlətimiz tərəfindən təhsilə xüsusi diqqət göstərilir. Təsadüfü deyil ki, son illər 2007-ci il Dövlət Proqramı ilə minlərlə istedadlı gənc xaricdə təhsil alır. Ümid edirəm ki, bu proqramın davamı olacaq və mən də təhsilimi daha nüfuzlu Avropa universitetlərindən birində davam etdirərək ölkəmizə daha bacarıqlı mütəxəssis kimi qayıdacağam.

Həmçinin bir məsələni də qeyd etmək istərdim. Son illər hamımızın gözünün qarşısında doğma Qəbələmizdə bütün sahələrdə—sənaye, kənd təsərrüfatı, idman, mədəniyyət, təhsil və s. dinamik inkişaf gedir. Bu inkişafda, Qəbələnin adının yüksək tutulmasında mənim də xırdaca bir payım olduğuna görə və bu inkişafa səbəb olanlarla bir cərgədə durduğuma görə qurur duyuram.

**Təranə ŞİRİNBƏYLİ,**
**şəhər 1 saylı tam orta məktəbin məzunu,**
**Prezident təqaüdçüsü.**

## «İlboyu bilik» layihəsi uğurla davam edir

Son illər ölkəmizdə təhsil sisteminin inkişafı ilə bağlı bir sıra önəmli addımlar atılmış,təhsilin müasir tələblər səviyyəsində tərəqqisini təmin edən və beynəlxalq təhsil sisteminə inteqrasiyaya geniş imkanlar açan mühüm dövlət proqramları qəbul edilmişdir. Prezidentimizin təşəbbüsü və göstərişi ilə son vaxtlar məktəbli gənclərin hərtərəfli inkişafına və dünyagörüşünün zənginləşməsinə stimul yaradan müxtəlif layihələr həyata keçirilir. Belə layihələrdən biri də Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun "İlboyu bilik" layihəsi çərçivəsində həyata keçirilən "Qardaşlaşmış məktəblər" proqramıdır. Layihənin məqsədi müstəqil Azərbaycanın tərəqqisi, cəmiyyətimizin maariflənməsi işinə yardımçı olmaq,bölgələrimizin tarixi, məişəti və etnoqrafiyasına dair biliklərə yiyələnməkdir. "Qardaşlaşmış məktəblər" proqramının iştirakçısı kimi Qəbələ rayonu, Nic qəsəbə 1 saylı tam orta məktəbi Beyləqan, Bərdə, Qax, Şəki, Zaqatala məktəbləri ilə məktəb və rayon rəsmilərinin iştirakı ilə gələcək əməkdaşlığın əsasını qoyacaq "Qardaşlaşma haqqında saziş" imzalamışdır. Proqram çərçivəsində ekskursiyalar, dəyirmi masalar ,disputlar və yarışmalar təşkil olunmuşdur.

Qeyd edim ki, 8 "Qardaşlaşmış məktəblərin" komandaları arasında keçirilən futbol yarışında məktəbimiz birinci yeri tutmuşdur.

Nic qəsəbə 1 saylı tam orta məktəb rayonun 150-dən artıq yaşı olan təhsil ocaqlarından biridir və təhsil sahəsində çoxlu ənənələrə malikdir.

Son illər məktəbimizdə təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsi sahəsində uğurlu nəticələr əldə edilmişdir. Belə ki, onlarla məzunlarımız ölkəmizlə yanaşı xarici ölkələrin, Rusiya, Ukrayna, Qazaxıstan və Polşanın ali məktəblərinə qəbul olmuşlar.

**Zəki EMİL,**
**Nic qəsəbə 1-saylı tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini.**

## Müəllimlik şərəfli peşədir

Bu gün müasir təhsil sisteminin əsas şərtlərindən biri müasir təhsil verənin formalaşmasıdır.

"Müəllimlik sənəti,peşəsi cəmiyyətdə ən yüksək qiymətə layiq bir peşədir. Müəllim olmaq kimi şərəfli bir iş yoxdur". Ulu öndər Heydər Əliyevin bu sözləri hər bir müəllimin fəaliyyətinin əsas qayəsi olmalıdır.

Bu gün ixtisasından asılı olmayaraq bütün müəllimlər öz üzərində daim işləməli, İKT avadanlıqlarından istifadə bacarığına yiyələnməli, öz fəaliyyəti ilə müasir tələblərə cavab verməlidir.

Mən də müasir tələblərə cavab verən müəllim olmaq üçün daim öz üzərimdə çalışmışam. İstər respublikamızda, istərsə də beynəlxalq aləmdə təhsildə baş verən dəyişikliklərlə, yeniliklə tanış olmağa çalışıram və əldə etdiyim yeni bilik, bacarıqlardan təlim prosesində səmərəli istifadə edirəm. Müəllim kimi fəaliyyət göstərdiyim 24 il ərzində yüksək uğurlar əldə etmişəm.

Son illərdə əldə etdiyim uğurlarım daha çoxdur. Əlbəttə ki, bu dövlətimizin təhsilə, təhsilverənə olan diqqətindən irəli gəlir.

27—29 may 2015-ci ildə Türkiyənin İstanul şəhərində keçirilən BETK-a təqdim etdiyim məqalə məsləhət şurası tərəfindən araşdırıldıqdan sonra konfransa dəvət aldım. Dəvəti məmuniyyətlə qəbul edərək konfransda "Riyaziyyatın tədrisində konstruktiv yanaşma" adlı məqalə ilə çıxış etdim. Təqdim etdiyim məqalənin oktyabr 2015-ci ildə TOJET jurnalının xüsusi buraxılışında çap olunacağı barədə məlumat aldım.

Bununla belə bir neçə dəfə müxtəlif mövzularda respublika və yerli mətbuatda çıxış etmişəm. Sonuncu məqaləm "Kurikulum" jurnalının son buraxılışında çap olunub.

Həm dövlətimizin təhsilə olan qayğısı, apardığı uğurlu siyasəti həm də öz üzərimdə işləməyin bəhrəsidir ki, bu il şagirdlərimiz çox yüksək nəticə əldə etmişlər. 2014—2015-ci tədris ilində TQDK-nın keçirdiyi qəbul imtahanında rəhbərlik və eyni zamanda riyaziyyat fənni tədris etdiyim XI c sinfində təhsil alan 21 şagirddən 13 nəfər yüksək nəticə göstərərək respublikamızın müxtəlif ali məktəblərinə qəbul olmuşlar. Şagirdlərimdən Hacıbəyli Aynur 657 bal, Hüseynli Pərviz 614 bal toplamışlar. Bütün bunlar mənim son 1 ildə qazandığım niliyyətlərdir.

Mən üzümü bütün həmkarlarıma tutub müraciət edirəm, gələcəyimiz olan gənclərin hərtərəfli formalaşması, yüksək elmi biliklərə sahib olması üçün peşakarlıq səviyyəmizi yüksəltməli,uşaqları sevməli, onları xalqın, vətənin gələcəyi üçün hazırlamalıyıq.

**Zöhrə MİRZƏLİYEVA,**
**Vəndam qəsəbə 1 saylı tam orta məktəbin riyaziyyat müəllimi.**

## Uğurlarımız artır

Son illərdə ölkəmizdə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Bu baxımdan işlədiyim Nohurqışlaq kənd tam orta məktəbində də təhsilin inkişafı, yeni təhsil alanların formalaşması istiqamətində xeyli iş görülmüşdür.

Son illərdə məktəbimizin uğurları daha da artmış və hər il məktəbi bitirən məzunların 60—70 faizi ali təhsil ocaqlarına daxil olur. 2013—2014-cü tədris ilində ən yüksək göstəricini Respublika fənn olimpiadasının kimya fənni üzrə qalibi, medalçı Nərgiz Tahirova göstərmişdir. Yüksək intellektual səviyyəyə, biliyə sahib olan Nərgiz 673 balla Tibb Universitetinin müalicə işi fakultəsinə daxil olmuşdur. Geridə qoyduğumuz tədris ilində də nəticələrimiz uğurlu oldu. Nərgizdən sonrakı nailiyyətimiz daha yüksək 686 bal oldu. Belə bir nəticə məktəbimizdə təhsilin səviyyəsinin ildən-ilə artdığını göstərir. Vüsalə Əzizlinin uğuru məktəbimizin indiyə kimi adına yazılan ən yüksək uğurlardan biridir. Respublika Fənn Olimpiadasının qalibi, tarix fənni üzrə bürünc medalçı olan Vüsalə təhsilini "Qızıl medal"la başa vurmuş və bu mükafatı uğurları ilə doğrultmuşdur.

**Şəfəq ABDULLAYEVA,**
**Nohurqışlaq kənd tam orta məktəbin müəllimi.**

## İlk dərs gününün sevinci

Ənənəvi olaraq keçirilən «Bilik günü» tədbiri Vahid Qəhrəmanov adına şəhər 1 saylı tam orta məktəbində həmişəki kimi təntənəli şəkildə qeyd olunmuşdur. Məktəbin həyətində təşkil olunmuş ilk dərs və «Bilik günü»nə həsr olunmuş tədbirə məktəbin pedaqoji kollektivi, şagirdlər, valideynlər və ictimaiyyətin nümayəndələri toplaşmışdı. Mərasimi məktəbin direktoru Məhəbbət Rüstəmova açaraq şagirdləri, müəllimləri və valideynləri ilk dərs günü münasibətilə təbrik etdi, onlara yeni tədris ilində uğurlar arzuladı.

Son illər Azərbaycan təhsilinin inkişafı üçün görülən işlər, həyata keçirilən layihələrdən söz açan Məhəbbət Rüstəmova dedi: «Milli təhsilimizin inkişafı daim dövlətimizin diqqət mərkəzində olub.

(Ardı 4-cü səhifədə).